# AZƏRBAYCAN RESPUBLİKASININ ALTERNATİV VƏ BƏRPA OLUNAN ENERJİ MƏNBƏLƏRİ ÜZRƏ DÖVLƏT AGENTLİYİ

## Ə M R

№ 11

Bakı şəhəri "05" 07 2018-ci il

**Azərbaycan Respublikasının Alternativ və Bərpa olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin tabeliyindəki qurumun istehsalat sahələrində yanğın təhlükəsizliyinin təmin edilməsi haqqında**

"Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun və "Azərbaycan Respublikasında Yanğın Təhlükəsizliyi Qaydaları"nın tələblərini və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iyulun 4-də ölkənin enerji sistemində vəziyyətlə əlaqədar keçirilən müşavirədə verdiyi tapşırıqları rəhbər tutaraq Dövlət Agentliyinin tabeliyində fəaliyyət göstərən "Azalternativenerji" MMC-nin istehsalat sahələrində, elektrik stansiyalarında, xidməti otaqlarında istehsalat zədələnmələrinin və avadanlıqlarda qəzaların törənməsinin qarşısının alınması və yanğına qarşı tədbirlərin təmin edilməsi məqsədi ilə "Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi haqqında Əsasnamə"nin 5.5.7-ci yarımbəndini rəhbər tutaraq

**əmr edirəm:**

1. "Azalternativenerji" MMC-nin istehsalat sahələrində, elektrik stansiyalarında, xidməti otaqlarında istehsalat zədələnmələrinin və avadanlıqlarda qəzaların törənməsinin qarşısının alınması və yanğına qarşı tədbirlərin həyata keçirilməsini təmin etmək üçün aşağıdakı tərkibdə işçi qrupu yaradılsın.

**İşçi qrupun rəhbəri:**

Aqşin Bəkirzadə - "Azalternativenerji" MMC-nin sədri

**İşçi qrupun üzvləri:**

İlham Əliyev - "Azalternativenerji" MMC-nin sədr müavini - baş mühəndis

Hüseyn Məmmədov - "Azalternativenerji" MMC-nin sədr müavini

| | |
|---|---|
| Tahir Cəfərov | - "Azalternativenerji" MMC-nin baş energetiki |
| Nizami Əsgərov | - "Azalternativenerji" MMC-nin baş texnoloqu |
| İlham Həsənquliyev | - "Azalternativenerji" MMC-nin Energetika şöbəsinin müdiri |
| Əli Pirverdiyev | - "Azalternativenerji" MMC-nin Layihə smeta və əsaslı tikinti şöbəsinin müdiri |
| Zakir Sadıqov | - "Azalternativenerji" MMC-nin Layihələrin idarəolunması şöbəsinin müdiri |
| Nazim Məmmədov | - "Azalternativenerji" MMC-nin Texniki istehsalat şöbəsinin müdiri |
| Eldar Əfəndiyev | - "Azalternativenerji" MMC-nin Texnologiya şöbəsinin müdiri |
| Fəzayıl Süleymanov | - "Azalternativenerji" MMC-nin Enerji istehsalı şöbəsinin müdiri |
| Vüsal Hüseynov | - "Azalternativenerji" MMC-nin Mərkəzi dispetçer xidmətinin rəisi – baş dispetçer |
| Mikayıl Rəsulov | - "Azalternativenerji" MMC-nin Enerji satışı və uçotu şöbəsinin müdiri |
| Elşad İbrahimov | - "Azalternativenerji" MMC-nin Əməyin mühafizəsi və texniki təhlükəsizlik şöbəsinin müdiri |
| İlyas Quliyev | - "Azalternativenerji" MMC-nin Hüquq və beynəlxalq əlaqələr şöbəsinin müdiri |

2. İşçi qrupuna tapşırılsın ki:

2.1. "Azalternativenerji" MMC-nin istehsalat sahələrində yanğın təhlükəsizliyi tədbirlərinin işlənib hazırlanmasını və aidiyyəti üzrə təsdiq edilməsini qısa müddət ərzində təmin etsin;

2.2. "Azalternativenerji" MMC-nin işçiləri tərəfindən yanğın təhlükəsizliyi normalarının, standartlarının və qaydalarının tələblərinə ciddi riayət olunmasına nəzarət etsin və yanğın təhlükəsizliyinə cavabdeh şəxslərin təyin edilməsi ilə bağlı tədbirlər görsün;

2.3. "Azalternativenerji" MMC-nin elektrik stansiyalarında və istehsalat sahələrində yanğına qarşı təbliğatın aparılmasını və işçilərə yanğın təhlükəsizliyi tədbirlərinin öyrədilməsi ilə bağlı təxirəsalınmaz tədbirlərin keçirilməsini təşkil etsin;

2.4. "Azalternativenerji" MMC-nin elektrik stansiyalarında və digər istehsalat sahələrində yanğından mühafizə bölmələrinin qanunvericiliklə nəzərdə tutulmuş qaydada yaradılması ilə əlaqədar təkliflər təqdim etsin və zərurət yaranarsa həmin bölmələrinin yaradılması ilə bağlı tədbirlər görsün;

2.5. görülmüş işlər haqqında mütəmadi məlumat versin.

3. Ümumi işlər üzrə sektor bu əmrin surətini Agentliyin aparatının struktur bölmələrinə və tabeliyindəki quruma elektron qaydada çatdırılmasını təmin etsin.

4. İnnovasiyalar və informasiya texnologiyaları şöbəsi Agentliyin internet səhifəsində bu əmrin surətinin yerləşdirilməsini təmin etsin.

5. Əmrin icrasına nəzarət Agentliyin Aparat rəhbəri İ.Əhmədova həvalə edilsin.

Sədr [signature] Akim Bədəlov

**Əmri hazırladı:**

Hüquq və beynəlxalq əlaqələr şöbəsinin məsləhətçisi — G.Əlizadə

**İmzalar:**

Sədr müavini — N.Yusifbeyli

Sədr müavini — C.Məlikov

Aparat rəhbəri — İ.Əhmədov

Hüquq və beynəlxalq əlaqələr şöbəsinin müdiri — A.Süleymanov